27 sentyabr Azərbaycanda Anım Günüdür

38 (1395) 25 sentyabr - 1 oktyabr 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## PREZİDENT İLHAM ƏLİYEV BAŞ ASSAMBLEYANIN 80-Cİ SESSİYASINDA İŞTİRAK EDİR



Sentyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva BMT-nin Nyu-Yorkda yerləşən mənzil-qərargahında Baş Assambleyanın 80-ci sessiyası çərçivəsində keçirilən yüksəksəviyyəli müzakirələrdə iştirak ediblər.

BMT-nin Baş katibi Antonio Quterreş dövlətimizin başçısı İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı salamlayıb.

Qeyd edək ki, BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında keçirilən Baş Assambleyanın 80-ci sessiyasında 150-dən çox dövlət və hökumət başçısı iştirak edir. “Birlikdə daha yaxşı: 80 il və daha çox sülh, inkişaf və insan hüquqları naminə” mövzusuna həsr olunmuş sessiyada qlobal gündəlikdə duran məsələlərə aid, o cümlədən dünyanın bəzi yerlərində davam edən münaqişələr, Dayanıqlı İnkişaf Məqsədləri, iqlim böhranı və digər mövzularda müzakirələr aparılır. Sessiya sentyabrın 30-dək davam edəcək.

## TRAMP BMT BAŞ ASSAMBLEYASINDA ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNİ BİTİRMƏSİNDƏN DANIŞIB

“Cəmi yeddi ayda yeddi bitməz müharibəni sona çatdırdım”.

Bu sözləri ABŞ Prezidenti Donald Tramp BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında keçirilən Baş Assambleyanın 80-ci sessiyası çərçivəsində yüksəksəviyyəli debatlarda çıxışı zamanı deyib. O bildirib ki, ölkələrin özləri onların (həmin münaqişələrin – red.) bitməz olduğunu deyirdilər.

*“Bəziləri 31 ildir davam edirdi. Yeddi müharibəni bitirdim. Buraya Kamboca və Tailand, Kosovo və Serbiya, Konqo və Ruanda, Ermənistan və Azərbaycan, Hindistan və Pakistan, İran və İsrail və digərləri daxildir. Heç bir Baş nazir və ya Prezident, yaxud heç bir ölkə bunu etmədi. İndiyədək belə bir şey olmamışdı”.*

**22 sentyabr 2025-ci il**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nyu-Yorkda “Neuberger Berman” şirkətinin sədri və baş icraçı direktoru Corc Volker ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nyu-Yorkda “Blackstone” şirkətinin prezidenti və baş əməliyyat direktoru Conatan Qrey ilə görüşüb.

* * *

**23 sentyabr 2025-ci il**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında İraq Respublikasının Prezidenti Əbdüllətif Camal Rəşid ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Yunanıstan Respublikasının Baş naziri Kiriakos Mitsotakis ilə görüşü olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Avropa Şurasının Baş katibi Alen Berse ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Keniya Respublikasının Prezidenti Uilyam Samoei Ruto ilə görüşü olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT-nin Nyu-Yorkdakı mənzil-qərargahında Finlandiya Respublikasının Prezidenti Aleksandr Stubb ilə görüşü olub.

## “SƏUDİYYƏ ƏRƏBİSTANI İLƏ ENERJİ SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞIMIZ YENİ MÜSTƏVİYƏ ÇIXIB”



Bu fikir Azərbaycan Prezidenti İlham Əliyevin Səudiyyə Ərəbistanı Krallığının milli bayramı - Krallıq Elan Edilməsi Günü münasibətilə İki Müqəddəs Ocağın Xadimi, Səudiyyə Ərəbistanının Kralı Salman bin Əbdüləziz Al Səuda ünvanladığı təbrik məktubunda yer alıb.

*“Qardaş ölkənizin aparıcı “ACWA Power” şirkətinin Azərbaycanda bərpaolunan enerji sahəsində həyata keçirdiyi fəaliyyətini, xüsusilə də Qafqaz regionunun ən böyük külək elektrik stansiyası olacaq Xızı-Abşeron külək elektrik stansiyasının tikintisini yüksək qiymətləndirirəm. Bu layihə Azərbaycan-Səudiyyə Ərəbistanı iqtisadi əlaqələrinin şaxələndirilməsində əhəmiyyətli rol oynayır. Eyni zamanda, OPEC+ çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığımızın mövcud səviyyəsi təqdirəlayiqdir”*, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

## UĞURLU ƏMƏKDAŞLIQ GETDİKCƏ GENİŞLƏNİR



Sentyabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nyu-Yorkda dünyanın alternativ investisiyalar sahəsində ən böyük idarəedici şirkətlərindən biri olan “Brookfield Asset Management” şirkətinin baş icraçı direktoru Brüs Flətt ilə görüşüb.

Brüs Flətt 2023-cü ildə ölkəmizə səfəri zamanı Azərbaycanda müşahidə etdiyi iqtisadi nailiyyətlərin və inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını bildirib. O, rəhbərlik etdiyi şirkətin Azərbaycan Respublikası Dövlət Neft Fondu ilə uğurlu əməkdaşlığının getdikcə genişləndiyini vurğulayıb.

Brüs Flətt Vaşinqtonda Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması ilə bağlı əldə edilmiş nəticələrə görə təbriklərini çatdırıb və bunun bölgədə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi üçün də yaxşı imkan yaratdığını deyib.

Ölkəmizlə “Brookfield Asset Management” şirkəti arasında qurulmuş əlaqələrin uğurlu inkişafından məmnunluğunu bildirən Prezident İlham Əliyev bunun əməkdaşlığımızın uzunmüddətli strateji inkişafı üçün geniş imkanlar yaratdığını vurğulayıb.

Söhbət zamanı Azərbaycanın bərpaolunan enerji sahəsindəki imkanları və ölkəmizin regional enerji mərkəzinə çevrilməsi perspektivləri barədə fikir mübadiləsi aparılıb.

## “AZƏRBAYCANLA ERMƏNİSTAN ARASINDA DAVAMLI SÜLHƏ GEDƏN ADDIMLARIN ATILMASINDAN MƏMNUNLUQ DUYURAM”

“Azərbaycan ilə Ermənistan arasında sülhün təmin olunması üçün tərəfləri ilk gündən dəstəklədik”.

Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Nyu-Yorkda BMT Baş Assambleyasının 80-ci sessiyası çərçivəsində yüksəksəviyyəli debatlarda çıxışı zamanı deyib.

O bildirib ki, avqustun 8-də iki ölkə (Azərbaycan və Ermənistan) arasında davamlı sülhə gedən addımların atılmasından məmnunluq duyur.

*“Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan başda olmaqla, prosesə dəstək verən ABŞ Prezidenti Donald Trampa bir daha təşəkkür edirəm. Bu mənada ölkəmizlə Ermənistan arasında normallaşma prosesinin öz axarı ilə davam etdiyini bildirmək istəyirəm”*, - deyə Ərdoğan əlavə edib.

## AZƏRBAYCAN İLƏ RUANDANIN ƏLAQƏLƏRİ YENİ İNKİŞAF MƏRHƏLƏSİNƏ QƏDƏM QOYUR

Müxtəlif qitələrdə yerləşmələrinə baxmayaraq, fərqli tarixi və mədəniyyəti olan Azərbaycan ilə Ruanda arasında son illərdə ikitərəfli münasibətlər intensivləşir. Bu, iki ölkə arasında əlaqələrin möhkəmlənməsinə qarşılıqlı marağın olduğunu təsdiqləyir.



Qarşılıqlı əlaqələr yalnız Qoşulmama Hərəkatı kimi çoxtərəfli platformalarda deyil, həmçinin ikitərəfli görüşlər və layihələr çərçivəsində genişlənir.

## “AZƏRBAYCAN İQTİSADİYYATI GÜCLÜ VƏ FUNDAMENTAL BAZA ÜZƏRİNDƏ QURULUB”

Bu fikir Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda keçirilən Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun iştirakçılarına müraciətində yer alıb.

Dövlətimizin başçısı qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə imzalanmış “Əsrin Müqaviləsi” qlobal miqyasda nümunəvi əməkdaşlıq modeli kimi tarixə düşüb, sonrakı illərdə Asiyadan Avropaya qədər uzanan iri transmilli layihələr və logistika şəbəkələrinin inkişafı üçün möhkəm zəmin yaradıb.

*“Ölkəmizin ərazi bütövlüyü təmin olunandan sonra Azərbaycanın səyləri ilə regionda uzunmüddətli sülh, sabitlik və dayanıqlı inkişafın əsası qoyuldu. Hazırda Azərbaycan xarici siyasətində artıq iqtisadi diplomatiyaya üstünlük verərək diqqətini yeni əməkdaşlıq əlaqələrinin qurulmasına, qeyri-neft sahələrinin, xüsusilə də ölkənin turizm potensialının daha da gücləndirilməsinə istiqamətləndirir”*, - deyə Prezident İlham Əliyev vurğulayıb.

# Hökumət statistikanın inkişafına böyük önəm verir



“Statistika istənilən cəmiyyətin, ölkənin və ölkəyə rəhbərlik edən şəxslərin əsas metodoloji alətidir. Azərbaycanda da Prezidentin tapşırığına uyğun olaraq hökumət statistikanın inkişafına böyük önəm verir”. Bu barədə Baş nazir Əli Əsədov III Beynəlxalq Statistika Forumunda deyib.

Onun sözlərinə görə, son illər Azərbaycanda Dövlət Statistika Komitəsi kifayət qədər inkişaf edib. Bu inkişaf həm metodoloji baxımdan, həm də təşkilatı baxımdan xeyli fərqlidir.

*“Prezident və hökumət statistika qurumunun fəaliyyətindən öz razılığını bildirir. O cümlədən Prezidentin tapşırığı ilə Azərbaycan hökuməti dəstək olaraq son illər ərzində 6 dövlət proqramını qəbul edib və bu proqramlar Azərbaycanda statistikanın inkişafını əks etdirir. Statistika elə bir alətdir ki, nəinki iqtisadiyyat, cəmiyyətin bütün sahələrini, dünəni, bu günü və sabahı proqnozlaşdırmaq üçün əsaslar olmalıdır. İnkişafı qiymətləndirmək üçün hansısa rəqəmlərə əsaslanmalıyıq və bu məlumatlar bizim inkişafımızı, addımlarımızı daha da qiymətləndirməyə imkan verir. Bu baxımdan statistikanın istənilən cəmiyyətin, sahənin inkişafında böyük rolu var. Bütün sahələrdə olduğu kimi, statistika sahəsi də inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyevin forum iştirakçılarına müraciətində qeyd edildiyi kimi, rəqəmsal inkişaf, İT, süni intellekt və yeni metodlar bu statistikanı daha dəqiq, çevik və əlçatan edir. Hesab edirəm ki, bu gün forumda yeni layihələr və yeni yanaşmalar öz həllini tapacaq”*, - deyə Baş nazir qeyd edib.

# "Əsrin müqaviləsi" Azərbaycan dövlətinin inkişafında əbədiyaşar bir sənəddir



1994-cü il sentyabrın 20-si Azərbaycan tarixində xüsusi əhəmiyyətə malik bir gündür. Bu gün imzalanmış Əsrin müqaviləsi müstəqil Azərbaycan dövlətinin iqtisadi müstəqilliyinin möhkəmlənməsi və dünya arenasında etibarlı tərəfdaş kimi tanınması baxımından əbədi iz buraxmışdır. Həmin müqavilə yalnız neft sənayesində yeni dövr açmamış, həm də ölkəmizin iqtisadi, siyasi və beynəlxalq mövqeyini gücləndirmişdir.

Məsələ ilə bağlı Crossmedia.az-a açıqlama verən Milli Məclisin deputatı Ziyad Səmədzadə "Əsrin müqaviləsi"-nin müstəqil Azərbaycan dövlətinin inkişafında əbədiyaşar bir sənəd olduğunu qeyd edib:

"1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" müstəqil Azərbaycan dövlətinin inkişafında əbədi yaşar bir sənəd kimi qiymətləndirilir. Bu müqavilə sayəsində Azərbaycan öz təbii sərvətlərindən məqsədyönlü şəkildə istifadə etməyə başladı və iqtisadiyyatının əsaslarını möhkəmləndirdi. "Əsrin müqaviləsi" müstəqil iqtisadi sistemin qurulması üçün ölkədə əlverişli şərait yaratdı və Azərbaycanın dünyaya çıxışını təmin etdi. Müqavilənin imzalanması Azərbaycanın enerji sektorunda qlobal nüfuzunun artmasına, neft məhsullarının dünya bazarlarına çıxarılmasına böyük töhfə verdi. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və digər boru kəmərləri Azərbaycanın qloballaşan dünyada neft ehtiyatlarını səmərəli istifadə edən ölkə kimi tanınmasına şərait yaratdı.

Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində, "Əsrin müqaviləsi" ilə əldə olunan güclü valyuta gəlirləri əsasında 1999-cu ildə Dövlət Neft Fondu yaradıldı. Bu fond bu gün ölkəmizə milyardlarla vəsaitin səmərəli idarə olunmasını təmin edir. "Əsrin müqaviləsi" Azərbaycan üçün həm iqtisadi güc, həm də beynəlxalq nüfuz qazandırdı.

Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında, Avropanın enerji təhlükəsizliyində Azərbaycanın müstəsna rolunda "Əsrin müqaviləsinin" əhəmiyyəti xüsusi vurğulanmalıdır. Bu müqavilə həmçinin bütün dünyaya göstərdi ki, Azərbaycan investisiya qoymaq üçün əlverişli, etibarlı və stabil ölkədir".

"İllər keçsə də,"Əsrin müqaviləsi" Azərbaycan iqtisadiyyatının möhkəmlənməsində və davamlı inkişafında həlledici rol oynayan strateji sənəd olaraq qalacaq", - deyə o əlavə edib.

**Mənbə: crossmedia.az**

# Dünya Bankı: “III Beynəlxalq Statistika Forumu çox mühüm mərhələdə keçirilir”



“Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv olan dövlətlərin Beynəlxalq Müqayisələr Proqramında fəal iştirak etməsi gələcək üçün olduqca ümidvericidir”.

Bu sözləri Dünya Bankının Beynəlxalq Müqayisələr Proqramı layihəsinin rəhbəri Marko Olavi Rissanen Bakıda keçirilən III Beynəlxalq Statistika Forumunda çıxış edərkən deyib.

Onun sözlərinə görə, forum statistika üçün çox mühüm bir mərhələdə keçirilir.

“Üç gün davam edəcək forumda biz əsas prioritetləri, 2024-cü il Beynəlxalq Müqayisələr Proqramının (BMP) cari mərhələsini, 2025-ci il Milli Hesablar Sisteminə keçidi, 2030-cu il əhali və mənzil siyahıya alınmasına hazırlığı və dayanıqlı inkişaf məqsədlərinin monitorinqini müzakirə edəcəyik. Müzakirə ediləcək mövzuları müasir texnologiyalar vasitəsilə rəsmi statistikanın modernləşdirilməsi, məlumat mənbələrinin daha sıx inteqrasiyası, həmçinin daha dayanıqlı institusional struktur kimi vahid xətt birləşdirir.

# “Rəqəmsallaşmada Azərbaycanın milli statistika qurumu nümunə ola bilər”



“Müasir dünya qlobal transformasiya dövrünü yaşayır. Sürətlə dəyişən dünyada miqrasiya prosesləri əhalinin siyahıya alınması məsələsini çox çətinləşdirib”.

Bu sözləri III Beynəlxalq Statistika Forumunda “Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu” mövzusunda keçirilən çıxışı zamanı MDB Statistika Komitəsinin sədri Konstantin Laykam deyib.

O bildirib ki, milli dövlətlərdə və ümumiyyətlə dünyada əhalinin sayını dəqiq bilmək və gələcək üçün düzgün proqnozlar vermək üçün statistikanın rəqəmsallaşması zəruridir.

*“Bu sahədə Azərbaycanın milli statistika qurumu nümunə ola bilər. Azərbaycan statistikasının inkişafı istiqamətində görülən işlər sırasında hökumət tərəfindən qəbul edilən 6 dövlət proqramını nümunə göstərə bilərik. Bu proqramların sayəsində rəqəmsallaşma aparılaraq statistikanın təkmilləşdirilməsi həyata keçirilib”*, - deyən K.Laykam nəzərə çatdırıb.

# “AIIF 2025” çərçivəsində saziş imzalandı: Azərbaycan və Qazaxıstan şirkətləri dəmir istehsalı üzrə əməkdaşlıq edəcək

Sentyabrın 23-də Bakıda keçirilən 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu (“AIIF 2025”) çərçivəsində “Daşkəsən Dəmir Filiz” (DDF) MMC və Qazaxıstanın “Fonte GreenMet Investments Fund OEIC Limited” şirkəti arasında birgə müəssisə müqaviləsi imzalanıb. Sazişə əsasən, tərəflərin yaratdığı birgə müəssisə – “Azerbaijan Metal



Company” MMC-nin idarə edilməsi və fəaliyyət istiqamətləri təsdiqlənib.

Müqaviləni “AzerGold” QSC-nin törəmə şirkəti DDF MMC-nin Baş direktoru Ceyhun Əliyev və “Fonte Capital Ltd” investisiya şirkətinin Baş direktoru Yerjan Musin imzalayıb. Qeyd edək ki, adıçəkilən şirkət Qazaxıstanın geniş şaxələndirilmiş investisiya portfelinə malik “Fonte Capital Ltd” investisiya şirkətininin idarəetməsində olan müəssisələrdən biridir.

Yeni təsis edilmiş birgə müəssisə illik 2 milyon ton istehsal gücünə malik isti briketlənmiş dəmir (İBD) zavodunun maliyyələşdirilməsi, layihələndirilməsi, qurulması və istismarı ilə məşğul olacaq. Şəmkir rayonu ərazisində tikilməsi planlaşdırılan zavodun 2029-cu ilin əvvəlində istismara verilməsi, burada müasir, ekoloji cəhətdən təhlükəsiz texnologiyalardan istifadə olunması nəzərdə tutulub. Qeyd edək ki, Daşkəsən dəmir filizi yatağının işlənməsi ölkəmiz üçün böyük iqtisadi səmərələr vəd edən irimiqyaslı layihədir. Bununla belə, yataqdakı filizlərin dəmir tərkibinin nisbətən aşağı olması (ortalama ~40%), filizlərin yerin daha dərin qatlarında yerləşməsi, eləcə də ölkəmizin beynəlxalq sulara birbaşa çıxışının olmaması layihənin əməliyyat və logistika xərclərinin ciddi şəkildə artmasına səbəb olur. Bu amillər isə, öz növbəsində, əlavə dəyər qazandıran məhsulların istehsalı zərurətini ortaya çıxarır. Bütün bunları nəzərə alaraq, layihənin effektiv icrasını təmin etmək məqsədilə beynəlxalq nüfuzlu məsləhətçi şirkətlərin iştirakı ilə optimal texnoloji həll yolu müəyyən edildi. Bu yanaşma, üç mərhələli istehsal zəncirini - 67% dəmir tərkibli daha keyfiyyətli konsentratın, pellet və isti briketlənmiş dəmirin (İBD) istehsalını əhatə edir.

Hazırda zənginləşdirmə və pellet istehsalı mərhələsi üzrə yekun bank təyinatlı Texniki-İqtisadi Qiymətləndirmə prosesi həyata keçirilir. Proses çərçivəsində geoloji, metallurji, texniki və iqtisadi təhlillər tamamlandıqdan sonra, layihənin bu hissəsi üzrə tikinti-quruculuq işlərinə başlanılacaq.

Layihənin ikinci mərhələsi illik 2 milyon ton istehsal gücünə malik İBD zavodunun qurulmasını əhatə edir. Birgə müəssisə müqaviləsi çərçivəsində qurulacaq İBD zavodu Daşkəsən dəmir filizi layihəsinin əsas kapital yüklü seqmenti olmaqla ümumi investisiya dəyəri təxminən 700 milyon ABŞ dolları təşkil edir. Bu təşəbbüs məhz dövlət büdcəsinə düşən maliyyə yükünün azaldılması məqsədilə xarici sərmayə cəlb edilərək həyata keçirilir. Layihə çərçivəsində ÜDM-ə illik 694 milyon ABŞ dolları həcmində töhfə gözlənilir və təxminən 1 600 nəfərin birbaşa və dolayı şəkildə işlə təmin olunması planlaşdırılır.

Daşkəsən dəmir filizi layihəsinin sadalanan dəyər zənciri üzrə bütün mərhələlərinin kompleks şəkildə icrası regiona daha böyük sosial-iqtisadi dividendlər qazandıracaq, həm birbaşa, həm də dolayı təsirlər nəticəsində təxminən 4 000 iş yerinin yaradılmasına imkan verəcək. Mərhələli şəkildə həyata keçiriləcək proses genişmiqyaslı sənaye sinerjisi yaradacaq, yerli və regional bazarlar üçün rəqabətqabiliyyətli məhsul istehsalı təmin edilməsi isə əməliyyatlara başlanıldıqdan sonrakı dövr üzrə ÜDM-ə təqribən 13 milyard ABŞ dolları həcmində töhfə verəcək.

# I Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda imzalanmış sazişlərin ümumi dəyəri açıqlanıb



Bu barədə Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov “X” hesabında paylaşım edib.

Nazir bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin himayəsi altında Bakıda keçirilən Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu Azərbaycanın xarici sərmayə üçün açıq və dayanıqlı iqtisadi mühitini, ölkənin strateji layihələr və uzunmüddətli əməkdaşlıqlar üçün etibarlı tərəfdaş olduğunu bir daha nümayiş etdirdi. O vurğulayıb ki, forum çərçivəsində ümumi dəyəri 10 milyard ABŞ dollarından çox olan investisiya layihələrinə dair sənədlər imzalandı: “Bunlardan ölkəmizdə xarici investisiyaların cəlbi ilə qeyri-neft sektoru üzrə həyata keçirilməsi nəzərdə tutulan layihələrin dəyəri 7 milyard ABŞ dollarından çoxdur. Böyük miqyaslı sərmayələr iqtisadiyyatın diversifikasiyasına, innovasiya və texnologiya transferinin sürətləndirilməsinə, rifahın yüksəldilməsinə yeni imkanlar açır. Ölkəmizin iqtisadi potensialının reallaşdırılmasına töhfə verən Forumun keçirilməsinə göstərdiyi böyük dəstəyə görə cənab Prezident İlham Əliyevə, eləcə də tədbirin təşkilatçılarına, dövlət rəsmilərinə, tərəfdaşlarımıza və bütün iştirakçılara dərin təşəkkürümüzü bildiririk”.

# 27 Sentyabr Anım Günüdür

**Müharibənin qaçınılmazlığı**

Rəsmi İrəvanın işğalçı siyasəti və saxtakarlığı müharibəni qaçınılmaz etdi.

Rəsmi İrəvan Azərbaycana qarşı uzun illər ərzində düşmənçilik siyasəti aparırdı. Tarixi Azərbaycan torpağı olan Qarabağa ermənilərin çar Rusiyası zamanı köçürüldüyü dövrdən etibarən xalqımıza qarşı başlamış düşmənçilik siyasəti 200 ildən çox davam edirdi. Ermənilər Azərbaycan ərazisində məskunlaşdıqları dövrdən etibarən xalqımızın toponimlərini dəyişməyə başlamış, münbit əraziləri ələ keçirməyə çalışmış və əksəriyyət təşkil etdikləri yaşayış məntəqələrində azərbaycanlıları sıxışdırmışlar;

**İfrat millətçilik üzərində qurulmuş Daşnaksütyun siyasəti**

Rusiya inqilablarının yaratdığı şəraitdən sui-istifadə edərək erməni qəsbkarları 1905-1907-ci və 1918-ci illərdə yüz minlərlə soydaşımızı vəhşicəsinə qətlə yetirmişlər. 1918-1920-ci illər isə xalqımızın yaddaşında erməni silahlı quldur dəstələrinin xüsusi qəddarlığı ilə yadda qalmışdır. Həmin illərdə İrəvanda, Dərələyəzdə, Zəngəzurda, Göyçədə, Tiflisdə, Naxçıvanda, Bakıda, Gəncədə, Şamaxıda, Qubada, Lənkəranda, Qarabağda, Muğanda, Göyçayda on minlərlə dinc azərbaycanlı əhali soyqırımına məruz qalmış, yaşadıqları yerlərdən qovulmuş, onlara işgəncələr verilmiş, yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edilmişdir;

**Rəsmi İrəvanın "dənizdən dənizə Ermənistan" adlı sərsəm ideyası**

1948-1956-cı illərdə Ermənistandakı öz tarixi dədə-baba torpaqlarından 150 minə yaxın azərbaycanlı deportasiya olunaraq Azərbaycanın Kür-Araz düzənliyində yerləşdirilmişdir. 1987-ci ildən başlayaraq daha 300 minə yaxın azərbaycanlı öz doğma yurdundan qovulmuş, bununla da Ermənistan monoetnik dövlətə çevrilmişdir. 1988-ci ildə başlayan Qarabağ hadisələri, erməni ideoloqlarının "dənizdən dənizə Ermənistan" adlı sərsəm ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, on minlərə günahsız insanın ölümü, yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələnmişdir;

**Xarici havadarları tərəfindən silahlandırılan ermənilər Azərbaycan ərazisinin 20%-ni işğal etmişlər**

İşğal zamanı yaşayış məntəqələri dağıdılmış, dinc əhali amansızcasına qətlə yetirilmişdir. Başlıbel, Ağdaban və Baqanis-Ayrım kəndlərində törədilmiş vəhşiliklər erməni faşizminin əsl simasını göstərir. Dinc azərbaycanlılara qarşı törədilən qətliamlar içərisində Xocalı qətliamı xüsusi qəddarlığı ilə seçilir. 1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində soyqırımı həyata keçirmişdir. Xocalı soyqırımı zamanı 613 nəfər, o cümlədən 106 qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürülmüş, 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 130 nəfər valideynlərindən birini itirmiş, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil olmuşdur;

**"İkili standartlar" siyasəti**

Müharibəni təhrik edən əsas amillərdən biri beynəlxalq təşkilatların "ikili standartlar" siyasəti oldu. Münaqişəsinin nizamlanması üçün 1992-ci il 24 mart tarixində təsis olunmuş ATƏM-in (indiki ATƏT) Minsk qrupu fəaliyyətinin 29 ili ərzində məsələnin həllinə yox, dondurulmasına çalışmış və bununla da illər ərzində aparılan danışıqlar nəticəsiz qalmışdır. Həm işğalçıya, həm də işğala məruz qalmış tərəfə eyni münasibət bəslənilmiş və beynəlxalq qətnamələr kağız üzərində qalmışdır;

**Azərbaycan daim beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirmiş və münaqişənin danışıqlar vasitəsilə həllinə çalışmışdır**

Birləşmiş Millətlər Təşkilatı (BMT) işğalçı Ermənistana təzyiq göstərməkdə acizlik nümayiş etdirmiş, tərəfləri sülhə çağıran bəyanatlarla kifayətlənmişdir. BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən 4 qətnaməsi 27 il kağız üzərində qalmış və icra olunmamışdır;



*"Əziz həmvətənlər, Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq! Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib."*

* * *

*"Birinci Qarabağ və İkinci Qarabağ müharibələrinin şəhidləri bizim qəlbimizdə əbədi yaşayacaq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qəhrəmanlığı, fədakarlığı nəticəsində biz torplaqlarımıza qayıdırıq. Allah bütün yaralı hərbçilərimizə şəfa versin, onlar tezliklə sağalıb normal həyata dönsünlər, onların sağalması üçün də əlimizdən gələni edirik və edəcəyik. Hətta ən ağır vəziyyətdə olan yaralı əsgərimiz, zabitimiz bilməlidir, əlimizdən gələni edəcəyik ki, onu normal həyata qaytaraq. Biz bu Qələbəyə görə onlara borcluyuq."*

**Azərbaycan Respublikasının Prezidenti,
Müzəffər Ali Baş Komandan İlham Əliyev**

**Müharibəni təhrik edən erməni təxribatları**

30 il ərzində Ermənistan işğalçı siyasətini davam etdirmiş, ərazilərimizdə təxribatlar törətmiş, təmas xətti boyunca yaşayan dinc əhalimizə mütəmadi atəş açmış, onların rahat yaşamasına imkan verməmişdir;

**Azərbaycan xalqı işğalla heç zaman barışmamışdır**

2016-cı il aprel ayında Lələtəpə və 2020-ci il iyul ayında Tovuz döyüşləri zamanı Azərbaycan bu işğalla barışmayacağını nümayiş etdirmişdir. Lakin Ermənistan bu döyüşlərdən də nəticə çıxarmamış, Azərbaycana qarşı diversiyaları davam etdirmiş, erməni siyasətçiləri xalqımıza qarşı aşağılayacı və təxribatçı bəyanatlar vermişlər;

**Sülhsevər və tolerant Azərbaycan xalqının "səbir kasasına" son qoymuş hərbi təxribat**

2020-ci il 27 sentyabr tarixində atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan silahlı qüvvələri cəbhə boyu Azərbaycan silahlı qüvvələrinin mövqelərinə intensiv zərbələr endirməklə yanaşı Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələrini qəsdən artilleriya atəşinə tutaraq Azərbaycana qarşı növbəti təcavüzə başladılar. Düşmənin hərbi təxribatını dəf etmək və təcavüzünə son qoymaq məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dərhal bütün cəbhə boyu əks-hücuma keçmək əmri vermişdir.

**Şanlı Qələbə ilə bitmiş 44 günlük Vətən müharibəsi**

Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksək, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olundu;

**Qələbə hərbi-siyasi yollarla təmin edildi**

Hərbi müstəvidə əldə edilən qələbənin siyasi müstəvidə davam etdirilməsi nəticəsində 44 günlük Vətən müharibəsindən sonrakı 20 gün ərzində 3 rayon – noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın Azərbaycana təhvil verildi. 2022-ci avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da üçtərəfli bəyanata uyğun olaraq, Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı;

**Vətən Müharibəsi Azərbaycanın tarixi qələbəsi ilə yekunlaşdı**

Azərbaycanın mədəniyyət paytaxtı hesab edilən Şuşa şəhəri Şanlı Azərbaycan Ordusu tərəfindən azad edildikdən dərhal sonra, noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalayıblar. Bu 44 günlük müharibə Azərbaycan torpaqlarının uzun müddət davam edən işğalına son qoydu;

**Qəhrəman əsgər və zabitlərimiz qürur mənbəyimizdir**

Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirib. Biz şəhidlərin qisasını döyüş meydanında aldıq. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib. Biz bundan sonra qalib ölkə, müzəffər xalq kimi yaşayacağıq və azad edilmiş torpaqları quracağıq, bərpa edəcəyik;

**Anım Günü dərin ehtiramın ifadəsidir**

Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilir;

**Dövlət hər zaman öz əsgərinin yanındadır**

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsinə daim yüksək ehtiram göstərir, onların xatirəsinin əbədiləşdirilməsini, eləcə də qazilərimizin müalicəsini və sağlamlıqlarının bərpasını diqqət mərkəzində saxlayır. Bu məqsədlə bütün aidiyyəti dövlət qurumlarının potensialı səfərbər olmuşdur;

**Vətən müharibəsində Qələbə münasibətilə medal və ordenlərin təsis olunması**

Yeni medal və ordenlərin Qələbənin əbədiləşdirilməsi və iştirakçılara ayrılan ali diqqətin təcəssümüdür. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət nümayiş etdirmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrin hərbi qulluqçuları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunublar;

**Zəfər parkı**

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin yaradılması tapşırılmışdı. Sərəncamdan dərhal sonra Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər muzeyinin layihələri hazırlandı və tikinti işlərinə başlanıldı.

Paytaxtın 8 Noyabr prospektində inşa olunan Zəfər parkının ərazisi 10 hektara yaxındır. Parkın girişində 44 günlük Vətən müharibəsinin rəmzi kimi hündürlüyü 44 metr, eni 22 metr, sütunlarının sayı 44 olan Zəfər tağı inşa edilib.

**Ehtiyacı olan bütün qazilərə, şəhid ailələrinə dövlət tərəfindən lazımi köməklik göstərilməkdədir**

Müharibə dövründə əlini, qolunu itirmiş qazilərimiz üçün ən müasir protezlər sifariş edilmişdir. Əsas məqsədi şəhid ailələrinin və hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılması üçün yaradılmış "YAŞAT" Fondu tərəfindən indiyədək 18 mindən yuxarı hərbiçi öhdəliyə götürülmüşdür, 93 milyona yaxın vəsait müvafiq istiqamətlər üzrə xərclənmişdir.

Azərbaycan Prezidenti 2021-ci il sentyabrın 27-də - Anım günü ilə bağlı xalqımıza müraciətində bir daha Ermənistana xəbərdarlıq edərək demişdi: ***"Erməni faşizmi məhv edilib, ancaq onun təzahürləri görünməkdədir. Bu, çox təhlükəli tendensiyadır, ilk növbədə, Ermənistan dövləti üçün. Mən bunu demişəm, bu gün Anım günündə şəhidlərimizin əziz xatirəsi önündə bir daha deyirəm, əgər biz görsək ki, erməni faşizmi baş qaldırır, əgər biz görsək ki, xalqımıza, dövlətimizə yeni təhlükə mənbəyi yaranır, heç tərəddüd etmədən erməni faşizminin başını bir daha əzəcəyik. Bunu hər kəs bilsin! Müharibənin və Qələbənin rəmzi olan "dəmir yumruq" yerindədir, bunu heç kim unutmasın!"***

# Çirkli pulların yuyulmasına qarşı mübarizədə xarici təcrübə

***Dünya təcrübəsi göstərir ki, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına qarşı ardıcıl və sistemli mübarizə aparmadan və belə halları ləğv etmədən iqtisadi inkişafın sürətləndirilməsi mümkün olmur. İstər qanunsuz yollarla əldə edilmiş əmlakın leqallaşdırılması, istərsə də onun törədicisi olan korrupsiya hər bir ölkənin iqtisadiyyatına böyük ziyan vurmaqla yanaşı, əlverişli investisiya mühitinin formalaşmasına, xarici və daxili mənbələr hesabına investisiyaların cəlb edilməsinə, sahibkarlığın inkişafına ciddi əngəl törədir. Eyni zamanda çirkli pulların yuyulması və korrupsiyanın geniş yayılması ölkənin maliyyə bazarının dayanıqlılığını sarsıdır.***

Müasir dövrdə maliyyə cinayətlərinin qarşısının alınması, xüsusilə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması (ƏL) və terrorçuluğun maliyyələşdirilməsi (TMM) sahəsində effektiv nəzarət mexanizmlərinin formalaşdırılması hər bir ölkənin prioritet istiqamətlərindən biridir. Bu istiqamətdə beynəlxalq təcrübə auditor nəzarətinin gücləndirilməsinin mühüm əhəmiyyət kəsb etməsini təsdiqləyir.

Xüsusi qeyd etmək lazımdır ki, ƏL/TM-ə qarşı mübarizə inzibati yollardan daha çox qabaqlayıcı tədbirlərin görülməsini məqsədəmüvafiq hesab edir. Belə ki, risklərin müəyyən edilməsi və onun qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, iqtisadi – maliyyə xarakterli cinayətlərin ümumilikdə və sahələr üzrə səbəblərinin xüsusiyyətlərinin və səviyyəsinin öyrənilməsi və bu zaman ixtisaslaşmış tədqiqatların nəticələrindən istifadə edilməsi, habelə qeyri-hökumət təşkilatları ilə birgə əməkdaşlığın vacibliyi vurğulanmışdır.

Azərbaycan Respublikasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması (ƏL) və terrorçuluğun maliyyələşdirilməsi (TMM) ilə mübarizəyə dair görülən uğurlu işlər əsasən hüquqi mexanizmlərin gücləndirilməsi, institusional potensialın artırılması, təlim və maarifləndirmə tədbirləri və beynəlxalq əməkdaşlıq səviyyəsində formalaşdırılıb. Hüquqi əsaslar və institusional çərçivəsində Prezident İlham Əliyevin 28 fevral 2023-cü il tarixli sərəncamı ilə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023–2025-ci illər üzrə Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Milli Fəaliyyət Planının təsdiqi barədə 2023-cü il 28 fevral tarixində Sərəncam imzalanmışdır. Bu plan aidiyyəti qurumlar arasında koordinasiyanı gücləndirmək, risklərin qarşısını almaq və səmərəli tədbirlər görmək məqsədini daşıyır.

Həmçinin Cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılmasına qarşı mübarizədə cinayət-hüquqi mexanizmlərin səmərəliliyini artırmaq, belə cinayətlərə məhkəmələrdə baxılması zamanı Azərbaycan Respublikasının cinayət və cinayət-prosessual qanunvericiliyinin tətbiqində sistemli xarakter daşıyan nöqsanlara yol verilməsinin qarşısını almaq, bu sahədə qanunvericiliyin eyni cür tətbiqinə və hüquqi yanaşmanın sabitliyinə xidmət edən vahid məhkəmə təcrübəsinin formalaşdırılmasını təmin etmək məqsədilə 2023-cü il 23 fevral tarixində "Cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılması cinayətinə dair işlər üzrə məhkəmə təcrübəsi, habelə cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərancam vermə cinayətinə dair bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun qərarı qəbul olunmuşdur.








Eyni zamanda da 2025-ci ilin iyulunda bir sıra qanunlarda, o cümlədən "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunda dəyişikliklər edilmiş, hansı ki hədəfli maliyyə sanksiyaları kimi yeni elementlər əlavə olunmuşdur.

Bu sahədə 20–21 sentyabr 2023-cü il tarixində Baş Prokurorluğun Elm Tədris Mərkəzində "istintaqda sübutetmənin xüsusiyyətləri" mövzusunda təlim keçirilmiş, hakimlər, DİN, Vergi xidməti və Maliyyə Monitorinqi Xidməti nümayəndələri bir araya gəlmişdir. Eyni zamanda 29–30 oktyabr 2024-cü il tarixində "həbs, qiymətləndirmə və müsadirə" proseslərini əhatə edən təlim təşkil olunmuşdur.

Azərbaycanda cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə əldə olunan əsas nailiyyətlərdən sırasında MONEYVAL (Avropa Şurasının Çirkli Pulların Yuyulması və Terrorizmin Maliyyələşdirilməsi üzrə Komitə) tərəfindən Azərbaycanda aparılan qiymətləndirmədə bu sahədə hüquqi və institusional bazanın gücləndirilməsi, effektli mübarizə sisteminin tətbiqinin yüksək dəyərləndirilməsidir. Eyni zamanda son beş il ərzində terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə yüksək effektivlik, istintaq və məhkumlaşdırma üzrə uğurlu nəticələr də vurğulanmışdır.

Ölkəmizdə bu sahədə Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti əsas koordinasiya orqanı kimi institusional rola sahib olmuşdur. Eyni zamanda, Nazirlər Kabinetinin 2023-cü il 13 dekabr tarixli 451 nömrəli Qərarı ilə cinayət yolu ilə əldə edilən əmlakın leqallaşdırılması, terrorçuluğun və kütləvi qırğın silahlarının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurası yaradılmış və onun Katibliyi formalaşdırılmışdır. Bu qərarla həmçinin Şuranın tərkibi və iş qaydası təsdiq edilmiş, risk qiymətləndirməsinin dövri keçirilməsi mexanizmi müəyyənləşdirilmişdir. Katibliyin əsas funksiyaları Koordinasiya Şurasının qərar və tapşırıqlarının icrasını təmin etmək, ƏL/TMM üzrə milli fəaliyyət planlarının icrasını monitorinq etmək və müvafiq hesabatlar hazırlamaq, dövlət orqanları, nəzarət qurumları və özəl sektor arasında məlumat mübadiləsini təşkil etmək, beynəlxalq təşkilatlarla əlaqə qurmaq və hesabatlılıq sahəsində texniki dəstək göstərmək, təlim, maarifləndirmə və risk əsaslı yanaşmaların tətbiqi sahəsində təşəbbüsləri dəstəkləməkdən ibarətdir.

Azərbaycan Respublikasında ƏL/TMM sahəsində fəaliyyət göstərən dövlət qurumlarının təcrübəsinin artırılması məqsədilə, Azərbaycan Respublikasının Auditorlar Palatasının nümayəndə heyəti 2024-cü il 03-07 dekabr tarixlərində Pakistan Respublikasının Karaci şəhərinə ezam olunmuşdur. Ezamiyyət çərçivəsində Auditorlar Palatasının nümayəndələri Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) müvafiq strukturları ilə geniş təcrübə mübadiləsi aparmışlar.

***Pakistan Respublikasının ƏL/TMM (cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi) sahəsində formalaşdırdığı təcrübə bu istiqamətdə regional və beynəlxalq səviyyədə müasir standartlara cavab verən mexanizmləri əhatə edir. Xüsusilə Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP) bu sahədə mühasiblər və auditorlar üçün xüsusi normativ çərçivə və peşəkar təlim mexanizmləri hazırlamışdır.***

Təşkil olunan ezamiyyətin əsas məqsədi, Pakistanın auditor fəaliyyətində ƏL/TMM sahəsində tətbiq edilən normativ və praktiki yanaşmalarla tanışlıq, bu istiqamətdə istifadə olunan proqram təminatlarının öyrənilməsi və keyfiyyətə nəzarət mexanizmlərinin öyrənilməsi olmuşdur. Səfər çərçivəsində nümayəndə heyətinin ICAP rəhbərliyi ilə keçirdiyi bir sıra görüşlər nəticəsində müəyyən istiqamətlər üzrə müzakirələr və təqdimatlar həyata keçirilmişdir.

ICAP-ın ƏL/TMM departamentinin rəhbəri Nori Mercant və onun komandası ilə keçirilən görüşlərdə Pakistanın ƏL/TMM sahəsində tətbiq etdiyi yanaşmalar, hesabatlılıq mexanizmləri, risk əsaslı yanaşmalar və audit şirkətləri üçün nəzərdə tutulan tələblər ətraflı şəkildə təqdim olunmuşdur. ICAP tərəfindən işlənmiş təlimat və siyasət sənədləri elektron şəkildə təqdim edilmişdir.

Zoom platforması üzərindən "İdenfo" adlı müştəri uyğunluğuna nəzarət proqramı ilə tanışlıq keçirilmiş, bu proqram müştəri məlumatlarının real vaxtda yoxlanılması, risk profilinin qiymətləndirilməsi və avtomatik hesabatlılıq imkanları ilə fərqlənir. "İdenfo" proqramının təqdimatı zamanı onun funksional imkanları və tətbiq sahələri barədə ətraflı məlumat verilmişdir. Həmçinin bu proqramın Azərbaycan Respublikasında fəaliyyət göstərən auditor təşkilatları və sərbəst auditorlar tərəfindən tətbiq potensialı ilə bağlı ilkin dəyərləndirmələr aparılmışdır. Səfərin dördüncü günü ICAP-ın Keyfiyyətə nəzarət departamentinin rəhbəri Şeyx Bilal Şəms ilə keçirilən görüşdə Pakistan təcrübəsində audit keyfiyyətinə nəzarət mexanizmləri və bu sahədə aparılan yoxlamalar barədə məlumat verilmişdir.

***Səfərin sonunda ICAP-ın Prezidenti Faruh Rahman və Şura üzvü Əli Lətif nümayəndə heyətini qəbul edərək, Azərbaycan-Pakistan əməkdaşlığının genişləndirilməsinin əhəmiyyətini vurğulamış və Palataya xoş arzularını bildirmişdirlər.***

Ezamiyyət çərçivəsində əldə olunan təcrübə, sənədlər və proqram təminatları Azərbaycan Respublikasında ƏL/TMM üzrə audit nəzarətinin təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. ICAP tərəfindən təqdim olunmuş sənədlər artıq tərcümə edilmiş və xidməti istifadə üçün verilmişdir.

Bu sənədlər həm müfəttişlərin, həm də auditor təşkilatlarının praktiki fəaliyyətində istifadə edilərək, risk əsaslı yoxlamaların və hesabatlılığın keyfiyyətini artırmağa xidmət edəcəkdir.

Auditorlar hüquqi və maliyyə şəffaflığının təmin olunmasında mühüm rol oynayırlar. Onların cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) sahəsində əsas funksiyalarına şübhəli maliyyə əməliyyatlarının aşkarlanması, risk əsaslı yanaşmanın tətbiqi, hüquqi və normativ tələblərə uyğunluğun yoxlanılması, eləcə də hesabatlılıq mexanizmlərinin qiymətləndirilməsi daxildir.

***ƏL/TMM sahəsində effektiv mübarizə yalnız hüquqi tədbirlərlə məhdudlaşmamalıdır. Audit və mühasibatlıq bu prosesin təməl sütunları olaraq maliyyə sisteminin şəffaflığını, hesabatlılığını və təhlükəsizliyini təmin edir. Bu səbəbdən, bu sahədə çalışan mütəxəssislərin biliklərinin artırılması, texnologiyaların tətbiqi və beynəlxalq təcrübənin mənimsənilməsi zəruridir.***

Pakistanın ICAP təcrübəsi auditor nəzarətində və ƏL/TMM mexanizmlərində sistemli yanaşmanın formalaşdırılması baxımından nümunəvi model təqdim edir. Azərbaycan nümayəndə heyətinin bu səfərdən əldə etdiyi bilik və materiallar ölkəmizdə bu sahədə tətbiq edilə biləcək qabaqcıl metodologiyaların əsasını təşkil edə bilər.

Bununla yanaşı, qeyd etmək istərdik ki, 2023-cü il 01 dekabr tarixində Azərbaycan Respublikasının Auditorlar Palatası və Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP) arasında Anlaşma Memorandumu imzalanmışdır.

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti və Auditorlar Palatasının birgə təşkilatçılığı ilə 2025-ci il 23–24 may tarixlərində "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizədə nəzarət orqanlarının rolu, vəzifələri və məsuliyyəti" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir. Konfransda İsrail, Pakistan və Latviya kimi ölkələrin audit və mühasibatlıq qurumlarının rəhbərləri və ƏL/TMM üzrə ekspertləri iştirak etmişdir. Tədbirdə Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) nümayəndə heyəti də iştirak edərək Pakistanın bu sahədəki təcrübəsini təqdim etmiş, eləcə də beynəlxalq əməkdaşlıq imkanları ətrafında müzakirələr aparılmışdır.

***Eyni zamanda qeyd etmək istərdik ki, 2023-cü il 28 iyul tarixində Azərbaycan Respublikasının Auditorlar Palatası və İsrailin Sertifikatlı İctimai Mühasiblər İnstitutunun (ICPAI) arasında Anlaşma Memorandumu imzalanmışdır. Əməkdaşlığın prioritet istiqamətlərindən biri ƏL/TMM sahəsində birgə fəaliyyətlərin təşkili və bu sahədə qarşılıqlı təcrübə mübadiləsinin həyata keçirilməsindən ibarətdir.***

Bu cür beynəlxalq əməkdaşlıqlar, yalnız təcrübə mübadiləsi baxımından deyil, həm də normativ bazanın təkmilləşdirilməsi və informasiya texnologiyalarının tətbiqi baxımından strateji əhəmiyyət daşıyırlar.



**Həbibə Məmmədova**
**Azərbaycan Respublikası Auditorlar Palatasının Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə şöbəsinin müdiri**

# "Azərbaycan regiona 144 milyard dollar xarici sərmayə cəlb edərək sülh və sabitliyə mühüm töhfə verib"

Energetika naziri Pərviz Şahbazov Bakıda keçirilən 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda "Rəqabətqabiliyyətlilik və Dayanıqlılıq: Mərkəzi Asiya və Cənubi Qafqazın Yaşıl Keçiddə Rolu" adlı panel sessiyada çıxış edib.

AZƏRTAC nazirliyin yaydığı məlumata istinadən xəbər verir ki, Mərkəzi Asiya və Cənubi Qafqaz regionları arasında əlaqələrin güclənməsində Azərbaycan Prezidenti İlham Əliyevin Cənubi Qafqaza sülh və sabitlik gətirən, Zəngəzur dəhlizinin reallaşması ilə Orta Dəhlizin əhəmiyyətini artıran və Mərkəzi Asiya dövlətləri ilə strateji tərəfdaşlığı gücləndirən uzaqgörən siyasətinin mühüm rolu qeyd olunub.

Həmçinin bildirilib ki, Azərbaycan indiyədək təxminən 144 milyard dollar xarici sərmayə cəlb edərək regionda Xəzər dənizini beynəlxalq investorlar üçün açıq elan edən, Xəzərdən Aralıq dənizinə, Qara dənizə və Adriatik dənizə enerji dəhlizləri yaradan ilk ölkə kimi bu prosesə mühüm töhfə verib.

Bakı-Tbilisi-Ceyhan kəməri indiyə kimi Azərbaycandan 540 milyon ton, Mərkəzi Asiyadan isə 53 milyon ton nefti dünya bazarlarına nəql edib. Hazırda Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq "Trans-Xəzər Yaşıl Enerji Dəhlizi" layihəsi üzrə birgə fəaliyyətlə yeni dinamika qazanıb. Nazir əlavə edib ki, "Trans-Xəzər Yaşıl Enerji Dəhlizi" digər interkonnektorlarla birlikdə enerji və ekoloji təhlükəsizliklə yanaşı, rəqəmsal və nəqliyyat bağlantılarını da gücləndirərək Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının geostrateji əhəmiyyətini daha da artıracaq.

# “Hazırda Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi diqqət ayrılır”



“Yaxın perspektivdə Azərbaycan Avropa bazarında öz mövqeyini mütləq təmin edəcək. Bunun üçün Azərbaycan iqtisadiyyatının potensialı var. Hazırda Azərbaycanda qeyri-neft sektorunun inkişafına xüsusi diqqət ayrılır və hökumət geniş infrastruktur layihələri həyata keçirməkdə davam edir”.

Bu sözləri 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində keçirilən “Strateji investisiya və maliyyələşdirmə: Dövlət-özəl tərəfdaşlığı və sinerji imkanlarının açılması” mövzusunda keçirilən panel iclasında çıxışı zamanı Macarıstandakı Türk Dövlətləri Təşkilatı Nümayəndəliyinin missiya rəhbəri Balazs Hendrik deyib.

O qeyd edib ki, əgər Orta Dəhliz həqiqətən bir imkan kimi qiymətləndirilirsə, bu, real fürsətə çevriləcək və qeyri-neft sahəsi yüksələn xətlə inkişaf edəcək.

# “Azərbaycan aqrar sektorda tədqiqat və inkişafa böyük sərmayə qoyur”



I Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun 2-ci günündə “Kənd təsərrüfatı və qida sənayesində təhsilin rolu” mövzusuna həsr olunmuş panel sessiyada çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən islahatlar, kənd təsərrüfatının əsas inkişaf istiqamətləri, aqrar sahədə innovasiyaların tətbiqi, aqrar sektora dövlət dəstəyi barədə tədbir iştirakçılarına məlumat verib.

AZƏRTAC xəbər verir ki, nazir bildirib ki, Azərbaycanın bütün dövlətlərlə yüksək səviyyədə əlaqələri, müasir nəqliyyat infrastrukturu, zəngin enerji resursları, iqlim şəraiti və əlverişli investisiya mühiti ölkəmizdə biznes icmalarının uğurlu fəaliyyəti üçün əhəmiyyətli üstünlüklər yaradır.

Onun sözlərinə görə, Azərbaycan aqrar sektorda tədqiqat və inkişafa böyük sərmayə qoyur, ölkəmizdə kənd təsərrüfatının inkişafı məqsədilə subsidiya, kredit və güzəşt formasında güclü dövlət dəstəyi mexanizmləri mövcuddur, bütün xarici biznes subyektləri bu imkanlardan bərabərhüquqlu şəkildə yararlana bilər. Bildirilib ki, resurslardan səmərəli istifadə etməklə məhsuldarlığın artırılması, iqlimə uyğunlaşmış, yaşıl və rəqəmsal kənd təsərrüfatının yaradılması, həmçinin ixrac məhsullarının və coğrafiyasının şaxələndirilməsi əsas hədəflərdəndir.

# Çin iş adamları Azərbaycana investisiya yatırmaq imkanlarını araşdırırlar



Bakıda Beynəlxalq İnvestisiya Forumunun keçirilməsi olduqca əhəmiyyətlidir. Bu tədbirdə Azərbaycanın potensialı və investisiya mühiti təqdim olunur ki, bundan da xarici investorlar faydalana bilir.

Bu sözləri Çinin Xarici İnvestisiya Assosiasiyasının rəhbəri Hi Çenvey 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində keçirilən “Strateji investisiyalar və maliyyə” mövzusunda panel iclasında çıxışı zamanı deyib.

***“Mən bu tədbirə tək gəlməmişəm. Mənimlə bərabər Çinin 12 əyalətindən 20 iş adamı gəlib və onlar Azərbaycana investisiya yatırmaq imkanlarını araşdırırlar. Ümid edirəm ki, axtarışlar nəticə verəcək və Azərbaycana yeni investisiyalar cəlb olunacaq. Çin iqtisadiyyatında xarici investisiyanın payı 19,5 faiz təşkil edir. Azərbaycan da Çinə investisiya qoyub və qarşılıqlı yatırımlar davam edir. 47 il ərzində həyata keçirilən iqtisadi islahatlar Çinin iqtisadi tərəqqisinə səbəb olub. Çində neft-qaz sahəsindən başqa digər sahələrdə də istehsal prosesini artırmağa çalışır. Azərbaycan hökuməti qeyri-neft sektorunun inkişafına xüsusi diqqət yetirir ki, bu da xarici investorlar üçün əhəmiyyətlidir. Azərbaycan nəqliyyat, tranzit və logistikanın inkişafında əməli nailiyyət əldə edib. Çin ilə Azərbaycan Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu çərçivəsində yaxın əlaqələrə malikdir. Bu marşrutla Çin Avropa bazarlarına çıxış əldə edib ki, bu da investorlara əlavə imkanlar yaradır”,*** - deyə Hi Çenvey vurğulayıb.

Çin Azərbaycanda yaşıl enerji istehsalına investisiya yatırmaqda maraqlı olduğunu deyən assosiasiya rəhbəri bunun üçün ölkədə əlverişli iqlim şəraitinin olduğunu vurğulayıb: ***“İş adamları Azərbaycanda “ağıllı evlər”in tikilməsinə, “ağıllı avtomobil”lərin istehsalı sahələrinə investisiya yatıra bilərlər”.***

# “4.0 Sənaye Mərkəzi” sənaye üçün “vahid pəncərə” modelində fəaliyyət göstərəcək

“Sənaye 4.0 texnologiyaları istehsalata 6,3 milyard dollar gəlir gətirə bilər. Gələcəkdə 85 milyon iş yeri boş qalacaq ki, bu da milyardlarla dollar itkiyə səbəb olacaq”.

Bunu Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin icraçı direktoru Fariz Cəfərov Bakıda keçirilən 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda çıxışı zamanı deyib.

“Biz bir sıra Azərbaycan şirkətləri ilə işləyirik. Sənaye 4.0 yanaşması nəticəsində böyük şirkətlərlə müqavilələr imzalanacaq. Azərbaycanda yaradılması planlaşdırılan 4.0 Sənaye Mərkəzində istehsal xətti olacaq. Burada insanlar təcrübələrini paylaşacaqlar. Bu məqsədlə digər böyük şirkətlərlə müqavilə imzalamışıq. Bu mərkəz sənaye üçün “vahid pəncərə” modelində fəaliyyət göstərəcək", - deyə F.Cəfərov qeyd edib.

# UNUTMAYAQ Kİ, UNUDARLAR...

## *Akademik İmam Mustafayevin xatirəsinə*

*(əvvəli 36/(1393) sayımızda)*

***Bütün bu suallar məni İmam Mustafayev haqqında ətraflı araşdırmalar aparmağa, onun ömür yolunu vərəqləməyə, haqqında deyilməmiş, yazılmamış faktları axtarıb tapmağa sövq etdi. Son illərdə mətbuatda rastıma çıxan bəzi subyektiv fərziyyələr, İmam Mustafayevin həyat yoldaşının qeyri-azərbaycanlı olduğuna görə ittiham edilməsi, respublika və xalq üçün guya heç bir iş görməməsi ilə bağlı əsassız fikirlər məni daha çox narahat etdi. İmam Mustafayev ilk və son Birinci katib deyildi ki, həyat yoldaşı başqa millətin nümayəndəsi olsun, bu, o dövrdə Moskvanın vacib tələblərindən biri idi (bu tələb yalnız birinci şəxsə yox, digər yüksək vəzifə sahiblərinə də şamil edilirdi). Hamıya məlumdur ki, Mir Cəfər Bağırovdan Əbdürrəhman Vəzirova kimi yalnız iki nəfərin - Vəli Axundovla, Heydər Əliyevin həyat yoldaşları azərbaycanlı olublar.***

Bir məsələni xüsusi vurğulamaq istəyirəm ki, İmam Mustafayev Sovet dönəmində Azərbaycanın yeganə rəhbəri olmuşdur ki, vəzifəyə təyin ediləndə artıq akademik idi. Onunla çiyin-çiyinə çalışan həmkarlarının qeyd etdiyi kimi, İmam Daşdəmir oğlu böyük şəxsiyyət, geniş təfəkkürlü dövlət xadimi, kənd təsərrüfatının mahir bilicisi, aqrar sahənin bacarıqlı alimi idi. O, kənd təsərrüfatı ilə yanaşı, sənayenin də inkişafına böyük diqqət yetirirdi. Mingəçevirdə, Sumqayıtda möhtəşəm tikinti işlərində, o illərin digər uğurlarında onun danılmaz xidmətləri vardır. Onun Birinci katib işlədiyi müddətdə ölkədə nüfuzunun yüksək olmasının bir səbəbi elmi səviyyəsi, yüksək təşkilatçılıq bacarığı idisə, ən başlıca amil şəxsiyyət kimi bütövlüyü, rəhbər üçün vacib olan mətinliyi, ideal saflığı, natiqliyi, ədalətli qərarlar qəbul etməsi, obyektivliyi qoruması, haqqı nahaqqın ayağına verməməsi idi. Gördüyü işlər barədə isə bir qədər ətraflı yazacağam...

Tarixi şəxsiyyətlərə münasibətdə birmənalı mövqe tutmağın əleyhinəyəm, insanların yaşadığı mühiti, ətraflarında baş verən siyasi prosesləri, onların həyatına, dünyagörüşünə və təfəkkürünə təsir göstərmək gücündə olan real qüvvələri, qısası, gerçəklikləri nəzərə almağın tərəfdarıyam. İndi biz Nizami Gəncəvini qınayaq ki, sən niyə “Leyli və Məcnun” poemasını Şirvanşah I Axsitana, “Xosrov və Şirin”i Məhəmməd Cahan Pəhləvana ithaf etmisən, yaxud bəziləri kimi Səməd Vurğunu Stalinə şeir yazmaqda ittiham edək? Axı bu, reallıqdır, həyat reallığı! Fikrimcə, düşdüyü tarixi şəraitdə də məsləki, amalı düz olan, xalqını, vətənini düşünən, ali təfəkkürlü insanlar yüksək mənəviyyatlarını qorumağı bacarmış, dövrün qadağalarına, mövcud məhdudiyyətlərə baxmadan əsas işlərini görə bilmişlər. Çox vaxt real qüvvələrdən vasitə kimi yararlanmış, onlara “sədaqətlərini” nümayiş etdirməklə ali məqsədlərə xidmət göstərmişlər. Bu siyahıya lap Nizami Gəncəvini, Molla Pənah Vaqifi də daxil etmək olar, Səməd Vurğundan Heydər Hüseynova, Mirzə Kazım bəydən Nəriman Nərimanova, Mirzə İbrahimova kimi onlarla tarixi şəxsiyyətimizi də... O insanlar ki, xislətlərində nəciblik, xeyirxahlıq, milli ruh, bəşəri duyğular olmayıb, o kəslər “zaman dəyirmanının kiçik vintləri” kimi fırlanıb ancaq öz missiyalarını, “xidməti borclarını” yerinə yetiriblər, onlar tarixin yaddaşında qala bilməyiblər.

***Bir həqiqəti də etiraf etmək lazımdır ki, zamanla mübarizə aparan, dövrün haqsızlıqlarına sərt etirazını bildirib tarixə möhürünü vuran Nəsimilər, Hüseyn Cavidlər, Əhməd Cavadlar, Mikayıl Müşfiqlər öz cəsarətləri, qüdrətləri ilə bərabər, xalqlarına da, bəşər sivilizasiyasına da daha çox xidmət göstərmək imkanından məhrum olublar. Təsəvvür etmək çətin deyil ki, əgər Səməd Vurğun da 1937-ci ildə repressiyaya məruz qalsaydı, sonrakı iyirmi ildə yazdığı onlarla poeması, yüzlərlə gözəl şeiri milli mədəniyyət tariximizə düşməyəcəkdi, yaxud Müşfiq iyirmicə il də artıq yaşasaydı, görün nələr yaradardı. Belə düşüncələr yadıma böyük Bəxtiyar Vahabzadənin bu misralarını salır:***



***Məslək, amal!***
***Əsl insanın yol yoldaşı.***
***Ömür üzük,***
***Məslək isə üzük qaşı.***
***Hər üzüyün qaşındadır öz dəyəri.***
***İnsanın da məsləkidir düz dəyəri...***

Belə düşündükcə, həm də yadıma İmam Mustafayev kimi tariximizin ən çətin dövrlərində ölkəmizə rəhbərlik etmiş, ancaq həm də yaxşı öyrənilməmiş, yaşadığı mühitlə xidmətləri lazımınca müqayisə edilməmiş parlaq şəxsiyyətlər düşür. Onun Birinci katib təyin edildiyi vaxt Stalinin vəfatından bir il, 37-ci ilin vahiməli hadisələrindən cəmi on yeddi il keçirdi, Mir Cəfər Bağırov həbs edilmişdi, müharibədən sonrakı aclıq, yoxsulluq tüğyan edirdi, sonralar həkimlərin depressiv psixoz diaqnozu qoyduğu Xruşşov dövlətin başçısı idi, nəinki Birinci katibin, hətta ən kiçik vəzifəli məmurun da rus dilindən başqa dildə danışmağa haqqı çatmırdı. Bu illər həm SSRİ, həm də Azərbaycan üçün sosial-siyasi baxımdan mürəkkəb və ziddiyyətli bir mərhələ idi. “Buzun əriməsi dövrü” - destalinizasiya başlasa da, siyasi repressiyalar yumşaldılsa da, Stalin dövrünün mirası və siyasi təzyiqlər hələ də qalırdı, əvvəlki qorxu mühiti və sistemin sərt idarəçiliyi hələ də hiss olunurdu. SSRİ rəhbərliyi tərəfindən respublikalarda milli mənsubiyyətin zəiflədilməsi, rus dilinin və mədəniyyətinin qabardılması siyasəti aparılırdı.

SSRİ rəhbərliyi müttəfiq respublikalarda stalinçi kadrlardan qurtulmağa çalışırdı. Bu, İmam Mustafayevi tez-tez çətin vəziyyətə salırdı - onun stalinçi hesab etdiyi kadrları “Mərkəz” müdafiə edir, etimad göstərib vəzifəyə təqdim etdiyi kəsləri isə Moskva stalinçi sayaraq təsdiq etmirdi. Nəticədə ölkə daxilində ciddi narazılıqlar yaranır, ona qarşı düşmən mövqe tutan şəxslərin sayı artırdı. Digər tərəfdən müharibədən sonra iqtisadi problemlərlə üz-üzə qalmış Azərbaycanda kənd təsərrüfatında ciddi çətinliklər mövcud idi, “Xruşşovun qarğıdalı siyasəti”, aqrar sektoru məcburi şəkildə dəyişmək cəhdləri də əlavə çətinliklər yaradırdı.

Ən böyük çətinliklər isə Azərbaycan mədəniyyətinə və dilinə qarşı basqıların güclənməsi ilə bağlı idi. İmam Mustafayev kimi milli hissləri, vətən təəssübkeşliyi qabarıq, eyni zamanda da dövlət məmuru kimi “partiyanın”, hökumətin tapşırıqlarını sözsüz icra etməli olan, nəinki işdə, iclaslarda, dövlət tədbirlərində, hətta evdə uşaqları, yaxın qohumları, dostları ilə də rus dilində danışmağa məhkum olan insanın vəziyyətinin nə qədər mürəkkəb olduğunu təsəvvür etmək belə çətindir. Belə bir mühitdə nəinki milli mənafelər uğrunda mübarizə aparmaq, dilin istifadə dairəsini genişləndirmək, onun dövlət idarələrində tətbiqinə nail olmaq, hətta bu barədə düşünmək də böyük cəsarət və qeyrət tələb edirdi. İmam Mustafayev isə daxilən çox güclü şəxsiyyət və yüksək intellektə, incə diplomatik manevrlərə qadir müdrik insan idi. Moskvanın ruslaşdırma siyasətinə qarşı milli mövqe tutmağın mümkün olmadığı dövrdə açıq mübarizənin mənasız olduğunu görüb milli dəyərləri və dili qorumağa çalışan ziyalılarla yaxınlıq yaradır, onları müdafiə edir və imkan daxilində onlara yüksək səlahiyyətlər verərək ürəyindəki niyyətləri həmin şəxslərin əli ilə həyata keçirməyə çalışırdı.

Belə insanlardan biri də dövrünün tanınmış simalarından olan, Stalin mükafatı, Lenin ordeni, akademik adlarına layiq görülmüş vətənpərvər yazıçı Mirzə İbrahimov idi. İmam Mustafayev Mirzə İbrahimovu Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsinə təqdim edərək bir sıra planlarını onun vasitəsilə reallaşdırmağa çalışırdı. Təbii ki, qatı bürokratiyanın, sərt diktaturanın hökm sürdüyü, hətta ucqar kəndlərdə belə rus dilində keçirilən Kolxoz iclaslarında Azərbaycan dilində danışmağın yasaq olduğu 50-ci illərdə Ali Sovetin Rəyasət Heyəti Azərbaycan dilinin dövlət dili elan edilməsi ilə bağlı qərarı birinci şəxsin razılığı olmadan qəbul edə bilməzdi. Yaxud 1956-cı ildə əlifba islahatı keçirərək Azərbaycan əlifbasından 1939-cu ildən bəri mövcud olan G, Y, Ë, Ü, Ö, Ə kimi rus hərflərinin milli qrafik işarələrlə əvəz edilməsi ilə bağlı və yaxud 1956-cı il avqustun 14-də Azərbaycan SSR rus, erməni və gürcü dilli məktəblərində Azərbaycan dilinin tədris edilməsi haqqında qərar qəbul etmək də sözsüz ki, İmam Mustafayevin razılığı ilə baş vermişdi. Dövrün tələblərinə müvafiq guya dövlət başçısına bərabər vəzifə hesab edilsə də, əslində simvolik səciyyə daşıyan, elə bir ciddi səlahiyyəti olmayan Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti Mirzə İbrahimovun gəlişi ilə Moskvanın başağrısına çevrilmişdi.

1954-1958-ci illərdə Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin sədri vəzifəsində çalışarkən Mirzə İbrahimov o dövr üçün bəzi vacib məsələlərdə siyasi və mədəni təşəbbüslər göstərərək bir sıra mühüm addımlar ata bilmişdi. Onun ən önəmli və tarixi addımlarından biri Azərbaycan dilinin rəsmi dövlət dili statusunun tanınmasına yönəlmiş fəaliyyətidir. O, SSRİ Ali Sovetinin sessiyalarında Azərbaycan dilinin hüquqlarının qorunması ilə bağlı kəskin çıxışlar etmiş və bu təşəbbüslər nəticəsində 20 avqust 1956-cı il tarixində Azərbaycan SSR Ali Soveti “Azərbaycan SSR-in dövlət dili haqqında” qanunu qəbul etmişdi. Bu qanunla Azərbaycan SSR Konstitusiyasına indiyədək görünməmiş yeni bir maddə əlavə edilmişdi. Tariximizdə ilk dəfə Azərbaycan dili dövlət dili elan olunmuş və bu, Konstitusiyaya ayrıca maddə şəklində daxil edilmişdi (Doğrudur, həmin maddə əlavə kimi sonradan tərtib edildiyinə görə konstitusiyaya daxil edilməmişdi, biz bu maddəni konstitusiyada bir də 1978-ci ildə gördük, ancaq hadisənin özü çox mühüm xarakter daşıyırdı, həmin əlavə çap edilməsə də, sonrakı addımların atılmasında mühüm rol oynadı, bu, böyük həqiqətdir). Bu, SSRİ tarixində milli dillərin müdafiəsi sahəsində əlamətdar və çox mühüm bir hadisə, digər respublikaların da milli özünüdərkinə yönəlmiş cəsarətli addım idi və bu, məhz Mirzə İbrahimovun siyasi və şəxsi nüfuzu sayəsində mümkün olmuşdu.

Ancaq həmin cəsarətin arxasında gözəgörünməz, həm də həlledici söz sahibi olan bir qüvvə dayanmışdı - bu, İmam Mustafayev idi. Həmin dayaq olmasaydı, təbii ki, məsələ elə ilk iclaslardaca boğular, Ali Sovetin sessiyasına, Konstitusiyaya kimi gedib çıxa bilməzdi. Müdrik ağsaqqallar deyib ki, qələbədə vuranla “vur” deyən şərikdir. Burada belə addımları atmağa mənəvi gücü və qüdrəti kifayət edəcək Mirzə İbrahimovu tapıb ona səlahiyyət verən, onun mübarizəsinə gizlicə dəstək olan, onu bütün bəlalardan qoruyan, dar ayaqda məsuliyyəti üzərinə götürən İmam Mustafayevin müstəsna xidmətlərinin həlledici rol oynadığını ayrıca qeyd etmək lazımdır.



*professor Misir Mərdanov*

## Tibbdə PR

# Dövlət Gömrük Komitəsinin komandası intellektual bilik yarışında I yerə layiq görüldü



Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Ümummilli Lider Heydər Əliyev – müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusunda 26 dövlət qurumunun iştirakı ilə təşkil olunan intellektual bilik yarışında Dövlət Gömrük Komitəsinin komandası I yerə layiq görülüb.

Komandanın kapitanı Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəis müavini, t.ü.f.d., dosent İsmayıl Əfəndiyev, üzvlərindən biri isə Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin mütəxəssisi Azad Əhmədov olub.

Bu möhtəşəm nailiyyət münasibətilə Dövlət Gömrük Komitəsinin komandasının bütün üzvlərini səmimi-qəlbdən təbrik edir, onlara gələcək bilik yarışlarında da uğurlar, qətiyyət və yüksək nəticələr arzulayırıq.

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# "Orta Dəhliz çox geniş coğrafiyanı birləşdirən strateji layihədir"



"Orta Dəhliz çox geniş coğrafiyanı birləşdirən strateji layihədir. Bu dəhliz Avropanı Xəzər dənizi vasitəsilə Asiya ilə bağlayan etibarlı və təhlükəsiz marşrut, yüklərin Asiyadan Avropaya və əks istiqamətdə çatdırılmasının ən qısa və optimal yoludur".

Bu barədə Prezident İlham Əliyevin Xəzər Siyasət Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Orta dəhliz boyunca: bağlantı, maliyyə və enerji" mövzusuna həsr olunmuş 6-cı Xəzər Biznes Forumunun iştirakçılarına müraciətində deyilir.

*"Azərbaycanın əlverişli coğrafi mövqeyi – iki qitənin tam ortasında yerləşməsi bizə bağlılıq məsələlərində mühüm rol oynamağa imkan verir. Bu gün artıq fəxrlə deyə bilərik ki, Azərbaycanın uzunmüddətli baxışı və yorulmaz səyləri nəticəsində Asiya və Avropa arasında daha yaxşı sinerjini təmin edən Orta Dəhliz kimi irimiqyaslı layihənin reallaşması mümkün olmuşdur. Orta Dəhlizin tam istismara verilməsi Azərbaycanın iqtisadi potensialı ilə yanaşı, ölkəmizdə mövcud olan siyasi sabitlik və təhlükəsizlik amili ilə də şərtlənmişdir"*, - deyə dövlət başçısı vurğulayıb.

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan Orta Dəhliz üzərində yerləşən nəqliyyat infrastrukturuna, xüsusilə də dəniz limanına, gəmiqayırma zavoduna, dəmir yolu və digər logistik infrastruktura böyük investisiyalar yatırıb.

Müraciətdə bildirilib ki, son üç ildə Orta Dəhliz üzrə Azərbaycan vasitəsilə yükdaşımalarının həcmi təxminən 90 faiz artmış, yüklərin keçid müddəti əhəmiyyətli dərəcədə azalmışdır. Aparılmış hesablamalara əsasən 2030-cu ilədək Orta Dəhlizin yük daşıma qabiliyyətinin 2021-ci il ilə müqayisədə 3 dəfə artacağı, yüklərin keçid müddətinin isə 2 dəfə azalacağı gözlənilir", - deyə dövlət başçısı vurğulayıb.

# Şuşada sağlamlıq və kurort tipli obyektlər üçün ərazilər ayrılıb

"Azərbaycanın azad edilmiş ərazilərində muzeylər və müxtəlif obyektlər də fəaliyyət göstərir və bu proses qarşıdakı illərdə də davam etdiriləcək. Bu isə həm turistlərin, həm də ziyarətçilərin cəlb olunmasına xidmət edir".

Bunu Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov Bakıda keçirilən 1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun ikinci günündə bildirib.

Onun sözlərinə görə, turistlər yalnız şəhərdə qalmayacaq, yaxşı sağlamlıq və istirahət mərkəzləri, kurort tipli obyektlərin yaradılması onların şəhərdə daha çox vaxt keçirməsinə imkan verəcək: *"Bunun üçün artıq baş planımızda investorların sağlamlıq və kurort tipli obyektlər inkişaf etdirə bilməsi üçün müəyyən ərazilər ayrılıb. Hazırda beynəlxalq məsləhətçilərlə birlikdə investorların imkanları daha rahat dəyərləndirməsi üçün müvafiq fizibiliti (iqtisadi əsaslandırma) araşdırmaları aparılır. Bununla paralel olaraq, qonaqpərvərlik xidmətlərinin də səviyyəsinin yüksəldilməsi nəzərdə tutulur. Əsas məqsədlərdən biri də beynəlxalq tanınmış brendlərin Şuşada və ətraf ərazilərdə fəaliyyətə başlamasıdır".*

# "AzerGold" QSC-də növbəti qanvermə aksiyası keçirilib




"AzerGold" QSC-də irsi və qazanılmış qan xəstəliklərindən əziyyət çəkən uşaqlara dəstək olmaq və onlar üçün tədarük olunan qan ehtiyatını artırmaq məqsədilə növbəti qanvermə aksiyası təşkil edilib. Aksiyada "AzerGold" QSC-nin və onun törəmə müəssisəsi olan "Daşkəsən Dəmir Filiz" MMC-nin əməkdaşları iştirak edərək, könüllü şəkildə qan veriblər.

Tədbir Milli Hematologiya və Transfuziologiya Mərkəzinin xüsusi tibb briqadasının həkim-hematoloqları tərəfindən həyata keçirilib. Donorların sağlamlıq vəziyyəti əvvəlcə müvafiq tibbi müayinə ilə yoxlanılıb, daha sonra qan nümunələri götürülüb.

Toplanan qan ehtiyatı laboratoriya şəraitində yoxlanılaraq, talassemiya, hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqların müalicəsində istifadə olunacaq.

# Mərkəzi Gömrük Hospitalında "Korrupsiyaya qarşı mübarizə" mövzusunda tədbir keçirilib






Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2025-ci il üçün Tədbirlər Planı"na uyğun olaraq Tibbi Xidmət İdarəsinin antikorrupsiya davranış modelinin formalaşdırılması ilə bağlı 2025-ci il üçün Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrası və qarşıda duran vəzifələrlə bağlı 19 sentyabr 2025-ci il tarixində Mərkəzi Gömrük Hospitalında "Korrupsiyaya qarşı mübarizə" mövzusunda tədbir keçirilib.

Tədbirdə Dövlət Gömrük Komitəsinin Mərkəzi Gömrük Hospitalının rəisi, Baş həkim Bəxtiyar Musayev, rəis müavinləri Nabil Seyidov və Nahidə Mahmudova, Poliklinika şöbəsinin rəisi Tamilla Əliyeva, şöbə rəisləri, həkimlər, rezidentlər, inzibati işçilər, baş və böyük tibb bacıları iştirak ediblər.

Tədbirdə Mərkəzi Gömrük Hospitalının rəisi, Baş həkim Bəxtiyar Musayev salamlama nitqi ilə çıxış edərək mövzunun aktuallığına dair fikirlərini bölüşüb, iş prosesində korrupsiyaya şərait yaradan halların qarşısının alınması istiqamətində həyata keçirilən mütəmadi xarakterli tədbirlər və korrupsiya hüquqpozmalarına qarşı ciddi və səmərəli mübarizə üsulları barədə ətraflı məlumat verib.

Daha sonra Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi Tədris Mərkəzinin mütəxəssisi Şəhla Mirzəzadə "Korrupsiya ilə mübarizənin səhiyyə üçün zərurliyi", Tibbi Xidmət İdarəsinin Hüquq şöbəsinin inspektoru Səmra Qasımova "Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə haqqında qanunvericilik bazası" mövzularında və Mərkəzi Gömrük Hospitalının rəis müavini Nabil Seyidov Hospitalın fəaliyyətinin şəffaf və uğurlu təşkili istiqamətində həyata keçirilmiş işlər, eləcə də qarşıda duran tədbirlərdən danışıb.

Tədbir zamanı Urologiya şöbəsinin rəisi Bəhruz Xalıqov və Uşaq Cərrahiyyəsi şöbəsinin rəisi Vüsal Cəfərov rəy və təkliflərini bölüşüb və iştirakçıları maraqlandıran suallar ətraflı cavablandırılıb.

**Dilarə Zamanova, Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# "Bakcell" regionun ən nüfuzlu innovasiya sammitinin tərəfdaşıdır




İnnovasiya və sürət lideri "Bakcell" regionun ən mühüm texnoloji tədbiri – "INMerge" İnnovasiya Sammitinin tərəfdaşıdır. Tədbir çərçivəsində "Bakcell"in Azərbaycanda tətbiq etdiyi innovativ texnologiyalar və süni intellekt əsaslı həlləri təqdim olunacaq.

Tədbirin ilk günündə "Bakcell"in baş icraçı direktoru Klaus Müller maliyyə və telekommunikasiya sahələri arasında qarşılıqlı imkanlar mövzusuna həsr olunacaq panel müzakirədə çıxış edəcək. Bundan əlavə, sammit zamanı iştirakçılar "Bakcell"in stendində şirkət tərəfindən təqdim olunan ən son innovativ xidmət və məhsullarla tanış olmaq imkanı əldə edəcəklər.

"Bakcell" təqdim etdiyi innovasiya və süni intellekt əsaslı həllərlə Azərbaycanın rəqəmsal transformasiya və texnologiya ekosisteminin inkişafı istiqamətində daim təşəbbüslər həyata keçirir.

Bununla yanaşı, şirkət dayanıqlı inkişaf və korporativ məsuliyyət strategiyası çərçivəsində innovasiya və süni intellekt sahəsində genişmiqyaslı fəaliyyətini davam etdirir.

"PAŞA Holding" tərəfindən təşkil olunan "INMerge" İnnovasiya Sammiti 29-30 sentyabr tarixlərində Bakıda keçiriləcək və 30-dan çox ölkədən 1,000-dən artıq təsisçi, investor, korporativ lider və siyasətçini bir araya gətirəcək. İki gün davam edəcək sammitdə iştirakçılara yüksəksəviyyəli çıxışlar, panel müzakirələri, startap müsabiqələri və şəbəkələşmə imkanları təqdim olunacaq. Bu ilki sammitə "IBM", "Microsoft", "Netflix", "Pixar" kimi bir çox qlobal və yerli şirkətlərin rəhbər və nümayəndələri qatılacaqlar.

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri Hikmət Xəlilova bacısı
**SƏADƏT XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri Hikmət Xəlilova bacısı
**SƏADƏT XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan İqtisadçılar İttifaqı və "İqtisadiyyat" qəzetinin kollektivi Azərbaycan Respublikası Nazirlər Kabinetinin İşlər müdiri Hikmət Xəlilova bacısı
**SƏADƏT XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Təsisçi:**
Akademik Ziyad SƏMƏDZADƏ
**Baş redaktor:**
Aytən SƏMƏDZADƏ

**ELMİ-REDAKSİYA ŞURASI:**
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500